# GENDER FEATURES IN THE ORGANIZATION OF LABOR ACTIVITY OF PRESCHOOL CHILDREN

**Elza Mollayeva**
Baku State University, Doctor of Pedagogical Sciences
E-mail: elzamollayeva@rambler.ru
https://orcid.org/0000-0002-5128-8214

**Abstract.** The article discusses the consideration of gender characteristics in the organization of labor activity of preschool children. It is noted that the preschool age is an important period in the development of children's gender role and the emergence of gender identity. From the moment a child realizes his or her self, the category of «gender» takes precedence, and his or her self-identification begins at the age of 1.5 years. At this age, he already knows that he is a «boy» or a «girl». Although children between the ages of 1, 5, and 3 try to learn the right attitudes toward themselves, women, or men, their level of understanding of gender differences is limited. One of the factors that increases the effectiveness of this process is to take into account the gender approach in the process of creating interest and love for work in children in preschool. During this period, children of different genders can master the labor of women and men in special classes. Here, the use of fairy tale characters that reflect the labor activity of both genders, at the same time, has a positive effect on the process of their identification.
**Keywords:** age, gender-role socialization, gender education, preschool age, gender identity.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.4
**To cite this article:** Mollayeva E. (2021). Gender features in the organization of labor activity of preschool children. *Journal of Preschool and Primary Education*, Vol. 237, Issue IV, pp. 9-22
**Article history:** received –23.11.2021; accepted - 09.12.2021

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN ƏMƏK FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ GENDER XÜSUSİYYƏTLƏRİNİN NƏZƏRƏ ALINMASI

**Elza Mollayeva**
Bakı Dövlət Universiteti, pedaqogika üzrə elmlər doktoru
E-mail: elzamollayeva@rambler.ru
https://orcid.org/0000-0002-5128-8214

**Annotasiya.** Məqalədə məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin təşkilində gender xüsusiyyətlərinin nəzərə alınmasından söhbət gedir. Qeyd olunur ki, məktəbəqədər yaş dövrü uşaqların cinsi-rol istiqamətdə inkişafında və gender identikliyinin yaranmasında əhəmiyyətli dövr hesab olunur. Uşağın öz “mən”ini dərk etdiyi zamandan cins kateqoriyası ilk yerdə durur və onun özünü kişi, ya qadın cinsinə aid etməsi 1,5 yaşından başlayır. Bu yaşda o, artıq özünün oğlan və ya qız olduğunu bilir. 1,5 yaşından 3 yaşa qədər olan dövrdə uşaqlar özlərinə, qadın və ya kişi cinsinə aid olan insanlara qarşı düzgün münasibəti öyrənməyə çalışsalar da, onların cinslər arasında olan fərqləri dərketmə səviyyəsi məhdud olur. Məktəbəqədər dövrdə uşaqlarda əməyə maraq və məhəbbətin yaradılması prosesində gender yanaşmasının nəzərə alınması bu prosesin səmərəliliyini artıran amillərdən biridir. Bu dövrdə müxtəlif cinsə aid olan uşaqların qadın və kişi əməyini mənimsəmələri xüsusi məşğələlərdə və dərnəklərdə həyata keçirilə bilər. Burada hər iki cinsin əmək fəaliyyətini əks etdirən nağıl personajlarından istifadə olunması, onların identikləşmə prosesinə müsbət təsir göstərər.

**Açar sözlər:** yaş dövrləri, cinsi-rol sosiallaşması, gender tərbiyəsi, məktəbəqədər yaş dövrü, gender identikliyi.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.4
**Məqaləyə istinad:** Mollayeva E. (2021). Məktəbəqədər yaşlı uşaqların əmək fəaliyyətinin təşkilində gender xüsusiyyətlərinin nəzərə alınması. «Məktəbəqədər və ibtidai təhsil», № 4 (237), səh. 9-22
**Məqalə tarixçəsi:** göndərilib – 23.11.2021; qəbul edilib – 09.12.2021.

## Giriş / Introduction

Müasir dövrdə tərbiyə prosesində gender amilinin nəzərə alınması bu prosesin səmərəliliyini artırmaqla bərabər, həm də uşaqların sosiallaşmasına, cinslər arasında ahəngdar münasibətlərin yaranmasına, gələcəkdə öz cinsi identikliyini daha düzgün dərk etmələrinə şərait yaradır. Gender amili uzun illər pedaqogikada diqqətdən kənarda qalmış, həm təlim, həm də tərbiyə prosesində bu amilin əhəmiyyəti öz lazımi qiymətini ala bilməmişdir. Bir çox elmlər kimi, pedaqogikada da patriarxal yanaşmaya əsaslanmaqla, tərbiyədə cinsi fərqlərin pedaqoji-psixoloji və sosial təsiri lazımi səviyyədə araşdırılmamışdır. Yeni elmi istiqaməti özündə ehtiva edən *genderologiya* insan hüquqlarının fəlsəfi, sosioloji və pedaqoji cəhətdən düzgün təyin edilməsində əsas sahə sayıla bilər. Bu elmi istiqamət cəmiyyətin bütün sahələrində sosial bərabərliyi inkişafın əsas istiqamətlərindən biri kimi qəbul edir.

*Gender* bərabərliyi hər iki cinsə aid olmaqla, cəmiyyətin bu istiqamətdə tərbiyəsini aktuallaşdırır və gender bərabərliyinin əldə edilməsini asanlaşdırır. Gender bərabərliyi müasir dövrün ümumbəşəri dəyərlərindən biri kimi qəbul edilir və bu, onu elmi paradiqma səviyyəsinə qaldıran amillərdən ən əsasıdır.

Bu gün pedaqogikada gender yanaşmasının pedaqoji fəaliyyətin bütün sahələrində nəzərə alınması xüsusi psixoloji-pedaqoji kateqoriyalar sisteminə ehtiyacın olduğu yeni elmi istiqamətin formalaşmasını aktuallaşdırır. Ümumiyyətlə, uzun müddət bir çox elmlər – antropologiya, pedaqogika, psixologiya, etika, təbabət, biologiya elmləri maskulin yanaşmaya əsaslanmışdır. Dünya təcrübəsində gender tədqiqatları, digər elmi istiqamətlərdən fərqli olaraq, daha az – yarım əsrə qədər tarixə malikdir. Azərbaycanda gender problemləri tam tədqiq edilməmiş sahə sayıla bilər və buna görə də təhsilin bütün pillələrində gender amilinin geniş elmi-pedaqoji tədqiqatlara cəlb edilməsi zərurəti ortaya çıxır.

Bu gün cinslər arasında münasibətlərin hüquqi və sosial bərabərlik aspektində qurulmasında təhsil sisteminin özünəməxsus rolu, imkanları var. Gender tərbiyəsinin məktəbəqədər yaş dövründən başlanması, təhsilin bu mərhələsində tərbiyə prosesində gender fərqlərinin nəzərə alınması sonrakı təhsil pillələrinin cinsi-rol sosiallaşmasına, düzgün cinsi identikləşməyə şərait yaradar. Tədqiqatçıların fikrinə görə, insanların ontogenetik inkişafı tarixində psixikanın ən sürətli inkişafı məhz bu dövrə təsadüf edir. Məhz bu dövrdən uşaqların tərbiyəsində gender yanaşmasının zəruriliyi nəzərə alınmağa başlamışdır.

## Əsas hissə / Main part

Uşağın ümumi inkişafında, onun öz «mən»ini dərk etməsində cins kateqoriyası ilk yerdə durur və onun özünü hansı cinsə aid etməsi 1,5 yaşından başlayır. Bu yaşda artıq o, özünün oğlan və ya qız olduğunu bilir. 1,5 yaşdan 3 yaşadək uşaqlar özlərinə və qadın, kişi cinslərinə aid olan insanlara qarşı düzgün münasibəti öyrənməyə çalışsalar da, onların cinslər arasındakı fərqləri dərketmə səviyyəsi məhdud olur. 3 yaşından etibarən, uşaqlar özlərini inamla qadın və ya kişi cinsinə aid edirlər. R.Q.Xristovanın tədqiqatlarına əsasən, deyə bilərik ki, uşaqlar 3 yaşından başlayaraq özlərinin hansı cinsə aid olduqlarını müəyyən etməkdə valideynlərinin fikirlərinə istinad edirlər [Xristova R.Q., 2008].

Uşaqlar dörd yaşından başlayaraq, ətrafdakı insanların gender fərqlərini onların geyiminə, saç düzümünə əsasən müəyyən edirlər. Belə ki, bu dövrdə cinslərarası zahiri fərqlər ətraf aləmi, orada baş verən hadisələri böyük maraqla müşahidə edən uşağın maraq dairəsindən kənarda qalmır və onlar oğlanın, qızın zahiri görkəminə cinsləri fərqləndirən əsas atribut kimi baxırlar (qızların hörüyü var, oğlanların saçı qısadır, qızlar ətək geyinir və s.). Qızlar üçün gözəl geyimi, zinət əşyalarını, saç düzümünü qadın cinsinin gözəllik atributlarından hesab etmək olar. Dörd yaşından başlayaraq uşaqlar cinslərarası fərqlərdə zahiri görünüşlə bərabər, insanların həm ailədə, həm də ictimai sahədə malik olduqları fəaliyyət növlərinə də fikir verirlər. Kiçik məktəbəqədər yaş dövründə uşaqların cinsi özünüdərketməsində onların cinslərin daimiliyi və ya dəyişməsi haqqındakı fikirləri çox ziddiyyətli olur. Onlara elə gəlir ki, paltarı dəyişməklə insanın cinsi mənsubiyyəti də dəyişə bilər.

Dörd yaşından sonra uşaqlarda cinsi özünüdərketmə başa çatır və onlar ətrafda mövcud olan stereotipləri cinsi-rol baxımından mənimsəməyə başlayırlar. "Artıq dörd-beş yaşında olan uşaq kişi ilə qadını ən azı 2–3 zahiri əlamətinə görə fərqləndirə bilir. Bu yaşda uşaqlarda cinslərin daimi olmaması haqqında fikirlər, az da olsa, qalır" [Xristova R.Q., 2008].

Böyük məktəbəqədər yaş dövrü uşaqların cinsi-rol aspektində inkişafında və gender identikliyinin yaranmasında əhəmiyyətli dövr sayıla bilər. Beş-altı yaşlı uşaq artıq öz bioloji cinsinin daimiliyini və dəyişməzliyini dərk edir. L.V.Qradusova bunu belə səciyyələndirir: «Oğlan böyüyəndə kişi, ata, baba, əmi, dayı, qız isə qadın, ana, nənə, bibi, xala olacaq. Böyük məktəbəqədər yaş dövründə olan uşaqlar «Sən böyüyəndə kim olacaqsan – ata, yoxsa ana (qadın, ya kişi?)?» sualına düzgün cavab verməklə bərabər, öz cavablarını da əsaslandırırlar: «oğlanlar ancaq kişi olurlar», «oğlan xala ola bilməz», «ancaq qızlar ana ola bilər» [L.V.Qradusova., 2011].

Altı yaşın sonunda uşaq öz cinsi rolunu mənimsəyir və onun cinsi identiklik sistemi formalaşır. R.Q.Xristova öz tədqiqatlarında belə nəticəyə gəlmişdir ki, böyük məktəbəqədər yaş dövründə olan uşaqlar öz cinsi mənsubiyyətlərinə müsbət yanaşırlar. Beş yaşlı qızların qadın cinsinə mənsub olmalarından razılıqları daha çox gözəl saç düzümünə və paltara malik olmaları ilə şərtlənir. Beş yaşlı oğlanlar isə zahiri görkəmi, tipik oyuncaqları və idman məşğələlərini daha vacib sayırlar.

Altı-yeddi yaşlı qızlar öz geyim və aksessuarları ilə yanaşı, xeyirxah, ağıllı olmaq kimi şəxsi keyfiyyətlərə də fikir verməyə başlayırlar. Oğlanlar isə özlərinin kişi cinsinə mənsub olduqlarının təzahürü kimi tipik kişi xüsusiyyətlərinə – güclü, cəsarətli olmağa, özlərindən zəif olanları müdafiə etməklə öz cinsi identikliklərini təsdiq etməyə çalışırlar. Qızların mənsub olduqları cinsə rəğbəti onların özlərini və əks cinsin nümayəndələrini xarakterizə edən zaman ortaya çıxır. 6–7 yaşlı qızlar çox vaxt özlərinin həmyaşıdları olan qızları gözəl, ağıllı, xeyirxah, sözəbaxan, oğlanları isə dalaşqan kimi qələmə verirlər.

Böyük məktəbəqədər yaş dövründə uşaqlarda cinslərarası rəğbət, əks cinsə seçici münasibət, ilk uşaqlıq məhəbbəti (vurğunluğu) özünü göstərməyə başlayır. Bu yaş dövründə qadınlıq və kişilik xüsusiyyətləri haqqında ciddi gender təsəvvürlərinin rüşeymi qoyulur, hər bir cinsin tipik fəaliyyət sahəsi uşaqlar tərəfindən dərk edilir. Bu zaman öz cinsinə mənsub yaşlıların təqlid olunması və onlara oxşamaq istəyinin olması həm geyimdə, həm də davranışda özünü büruzə verir. S. Biddalf qeyd edir ki, «təxminən altı yaşda oğlanlarda kişilərlə həmişə bir cərgədə olub, onlardan öyrənmək, onları təqlid etmək istəyi güclü olur. Onlar «kişi olmağı» öyrənmək istəyirlər» [Biddalf S., 2005].

B.E.Kaqan cinsi identikliyin formalaşmasında üç mərhələni əsas götürür: cinsi fərqlər, nominativ cins və cinsi identifikasiya. Bu mərhələlərdə böhran dövrü üç yaşda ( ilkin cinsi identiklik) və beş-altı yaşda (cinsi identiklik sisteminin yaranması) özünü göstərir. Cinsi (gender) identiklik sisteminin yaranması təfəkkür, düşüncə tərzi ilə davranışın üst-üstə düşməsində özünü göstərir. "Normal cinsi identikliyə və psixoloji davranış bacarıqlarına malik olan altıyaşlılar bunları bacarmalıdırlar:

– özünün hər hansı bir cinsə mənsub olduğunu emosional baxımdan rahat qəbul etmək, onun daimiliyini dərk etmək;

– oğlanda gələcəkdə necə kişi olması, qızda isə necə qadın olması haqqında indidən fərdi psixoloji xüsusiyyətlərin müəyyənləşdirilməsi;

– öz davranışını kişi (qadın) davranışı ilə əlaqələndirmək;

– uşağın şəxsən özünü həm öz cinsindən, həm də əks cinsdən olan uşaqlarla əlaqələndirməsi;

– öz cinsi mənsubiyyətinin həm özü, həm də başqaları üçün əhəmiyyətini

dərk etməsinin, cinsi-rol ideallarının, dəyərlərinin və oriyentasiyasının qazanılması” [Kaqan B.E., 2000].

Yeddi yaşın sonunda – səkkiz yaşın əvvəllərində uşaq şəxsi identiklik və cinsi-rol mərhələsinə daxil olur. R.Q.Xristova məktəbəqədər yaş dövrünün gender identikliyi prosesinin aşağıdakı xarakterik xüsusiyyətlərini vurğulamışdır:

– mərhələlik, 1.5–3 yaşda gender identikliyinin fərqinə varmaq və 3–5 yaşda gender identikliyinin formalaşması, daha sonra gender rollarının mənimsənilməsi;

– inteqrativlik;

– sosial mühitdə uşaqdan gözlənilən gender davranışı ilə onun fərdi davranışı arasındakı ziddiyyət;

– fiziki, funksional, intellektual, emosional və psixososial inkişafın bütövlüyü;

–bioloji, psixoloji və sosial başlanğıcın birliyi və gender sosiallaşması prosesində cinsin psixoloji formalaşması” [Xristova R.Q., 2008].

Tədqiqatçı A.A.Çekalinaya görə, böyük məktəbəqədər yaş dövründə gender identikliyinin formalaşmasının dörd səviyyəsi müəyyən edilmiş və səciyyələndirilmişdir. Bu yaş dövründə uşaqların çoxu adekvat səviyyəyə uyğun gəlir.

**Adekvat səviyyə** [**lat.** *adaequatus–bərabərlə*şdirilmiş, müvafiq] uşaqların öz cinsi mənsubiyyətlərindən məmnunluğu, qürur hissi keçirmələri, cinsi fərqlərin dəyişməz olduğunu dərk etmələri ilə xarakterizə olunur. Bu səviyyəyə uyğun olan uşaqlar gələcəkdə özlərinin ailədə, cəmiyyətdə rollarını təsəvvür edir və öz həmyaşıdlarına xeyirxah münasibət bəsləyirlər.

**Ambivalent səviyyəyə – (ing.** æmˈ*bıv(ə)l(ə)nt – ikili* deməkdir*)* aid olan uşaqlar öz cinsi mənsubiyyətlərindən məmnundurlar, lakin öz seçimlərində cinsi fərqlərdən daha çox, şəxsi insani keyfiyyətlərə üstünlük verirlər.

İndifferent səviyyəyə (**ing.**– *ınˈdıf(ə)r(ə)nt– laqeyd, biganə* deməkdir) aid olan uşaqlar bu xüsusiyyətləri ilə seçilirlər: öz cinsi mənsubiyyətinin müəyyənləşdirilməsinə biganəlik; gender imkanlarının dərk edilməsində natamamlıq; aid olduğu cinsin nümayəndəsi olduğuna qəti inamın olmaması. Bu səviyyəyə aid olan uşaqlar gələcəkdə özlərinin ailədə və cəmiyyətdəki rollarına da biganədirlər.

**Qeyri-adekvat** uşaqlar mənsub olduqları cinsə görə qürur hissi keçirmirlər və tez-tez öz cinslərini dəyişmək haqqında fikirlərini dilə gətirirlər, gələcəkdə ailədə və cəmiyyətdəki rolları onlar üçün heç bir əhəmiyyət daşımır. “Bu uşaqlar üçün əks cinsin imkanları və özünütəsdiqi daha cəzbedici görünür”. [Çekalina A.A., 2009]

Gender identikliyinin formalaşması heç də o demək deyildir ki, oğlanlarda kişilik və qızlarda qadınlıq xüsusiyyətləri bərabər sürətdə təşəkkül tapır. Maskulinlik və feminliyin nisbətinə görə, cinsi-rol davranışının dörd tipi müəyyən

edilmişdir: *maskulin, femin, androqin* və *amorf* tipləri. Tədqiqatçı L. E. Semyonovaya görə, məktəbəqədər yaş dövründə androqin tipli uşaqlar çoxluq təşkil edirlər (38%). Bu yaş dövründə digər tiplər arasındakı nisbət belədir: femin meyilli – 30,2%, amorf tip –11,4% [Semyonova L.E., 2002].

*Maskulin* tipli uşaqlar üçün xarakterik xüsusiyyətlər bunlardır: avtoritetliyin qəbul edilməsi, davranışda sərbəstlik, fərdi uğurlara can atma, yaşıdları ilə münasibətdə avtoritar xarakterin təzahürü, yaşıdları ilə rəqabətə girmək. Maskulin tipli uşaqlar daha çox liderlik mövqeyini seçir və öz ideyalarının başqaları tərəfindən qəbul edilməsində aqressivliyə yol verirlər.

*Femin* tipli uşaqların əksəriyyəti qızlardır, həm oğlan, həm də qızlarda davranışda emosional-ekspressiv üslub, öz fikrindən imtina etmək və ətrafdakıların göstərişi ilə hərəkət etmək kimi xarakterik cəhətlər özünü göstərir. Femin tipli oğlanlar öz oğlan həmyaşıdları və maskulin tipli qız yaşıdları ilə ünsiyyətdən qaçırlar. Bunlarla yanaşı, femin tipli qızlar sosial ünsiyyətdə daha çox uğur qazandıqları halda, onların femin tipli oğlan yaşıdları ilə ünsiyyətində çətinliklər müşahidə olunur.

*Androgin* tipli uşaqlar yüksək sosial fəallığı, həmyaşıdları ilə hərtərəfli, çoxsaylı əlaqələri ilə fərqlənirlər və onların davranışında həm qadın, həm də kişi xüsusiyyətləri özünü göstərir. Belə uşaqlarda maskulin cəhət ancaq konstruktiv xarakter (müdafiə, kömək) daşıyır və yüksək nailiyyətlər əldə edə bilirlər.

*Amorf* tipə aid olan uşaqlar hər hansı cinsi-rol istiqamətinin olmaması ilə xarakterikdirlər və heç bir fəaliyyət növünə maraq göstərmirlər, real həyatda uğurları azdır, onları həmyaşıdları kollektivə cox həvəssiz qəbul edir, onlarla ünsiyyətdən qaçırlar.

Gender identikliyinin formalaşmasına müxtəlif amillər təsir edir ki, buraya həm sosial, həm də bioloji faktorları daxil etmək olar. Cinsi-rol identikliyinin inkişafındakı qeyri-münbit şərait bu sahədə müxtəlif sapmalara səbəb ola bilər və psixoloqların fikrinə görə, artıq 5–6 yaşı olanda uşağın cinsi identifikasiyasındakı çatışmazlıqları müəyyən etmək olar.

A.A.Çekalina 5–7 yaş arası uşaqların cinsi-rol identikliyinin öyrənilməsi üçün onlara aşağıdakı suallarla müraciət etməyi məsləhət görür:

* Sənin adın nədir? Sənin adın kişi adıdır, yoxsa qadın?

* Sən qızsan, yoxsa oğlan?

* Oğlan (qız) olmaq istəyirsənmi? Nə üçün?

* Böyüyəndə ata olacaqsan, yoxsa ana?

* Böyüyəndə əmi, dayı olacaqsan, yoxsa bibi, xala?

* Oğlanlara hansı oyunları oynamaq daha maraqlıdır? Qızlara hansı oyunlar daha maraqlıdır?

* Əgər sehrbaz səni çox güclü, yaxud çox gözəl bir insana çevirə bilsəydi, sən

hansını seçərdin: güclünü, yoxsa gözəli?

* Əgər sehrbaz səni oğlana (qıza) çevirsəydi, özünü necə aparardın? Nə ilə məşğul olardın? Hansı oyunları oynayardın?

* Sən atana oxşayırsan, yoxsa anana? Sən valideynlərindən kimə oxşamaq istərdin – atana, yoxsa anana? Nə üçün?

* «Evcik – evcik» oynayan zaman sən ata rolunu oynayırsan, yoxsa ana?

* Sən istərdinmi ki, qrupda (sinifdə) tərbiyəci kişi olsun? Niyə istərdin? Niyə istəməzdin?

* Sən böyüyəndə hansı peşəyə sahib olmaq istərdin?

* Sənin ailəndə ən güclü kimdir?

* Sənin ailəndə başçı kimdir?

* Sənin ailəndə ən gözəl kimdir?

* Kiminlə oynamaq sənin üçün daha maraqlıdır – atanla, yoxsa ananla?

* Kimə kömək etmək daha maraqlıdır – atana, yoxsa anana?

* Sizin qrupda (sinifdə) ən güclü uşaq kimdir?

* Sizin qrupda (sinifdə) ən gözəl uşaq kimdir?

* Kiminlə oynamaq daha maraqlıdır– oğlanlarla, yoxsa qızlarla?

*Kiminlə dostluq etmək daha maraqlıdır – oğlanlarla, yoxsa qızlarla? [Çekalina A.A., 2009].

Beləliklə, məktəbəqədər dövr uşaqlarda gender identikliyinin yaranması və inkişafında əhəmiyyətli mərhələ sayıla bilər.

Birinci istiqamətin reallaşdırılması hər iki cinsdən olan uşaqlar üçün ayrıca «qadın» və «kişi» guşələrinin yaradılmasını zəruri edir. Əmək guşələrində həm qadın, həm də kişi əməyi üçün vacib olan əmək alətləri (oğlanlar üçün çəkic, mişar, kəlbətin, mismar və s.; qızlar üçün iynə, sap, toxumaq üçün millər və s.), texnoloji çertyojlar, biçmək üçün ölçü vasitələri olmalıdır.

Uşaqların qadın və kişi əməyini mənimsəmələri xüsusi məşğələlərdə və dərnəklərdə həyata keçirilə bilər. Tədqiqatçı İ.V.Telnyuk *heterogen* (eyni cinsdən olmayan) qruplarda həm oğlan, həm də qızlar üçün ümumi məşğələlərin keçirilməsini məsləhət görür. Belə ki, heterogen qruplarda məşğələ bütün uşaqlar üçün eyni məzmunda olur ki, onun da əsasını uşaqların əmək prosesi ilə tanışlıq təşkil edir. *Homogen* (eyni cinsli) tərkibli qruplarda keçirilən məşğələlər diferensiallaşdırılmış məzmunda olur [Telnyuk İ., 2006 ] Oğlanları tipik kişi, qızları isə tipik qadın əməyinin növləri ilə yaxından tanış edirlər. Qadın və kişi əməyi arasındakı fərqi izah edən müəllim, uşaqlara onların arasındakı fərqləri də izah etməlidir (kişi əməyi daha çox fiziki güc, dözüm tələb edən, qadın əməyi isə fiziki cəhətdən daha yüngül olan əməkdir). Bu izahetmədə qadın və kişi cinsinin fizioloji, bioloji, morfoloji fərqlərini izah etmək lazım gəlmir, belə ki, daha mürəkkəb quruluşa malik olan bu fərqləri qavramağa və anlamağa məktəbəqədər yaşlı uşağın

təfəkkürü hazır deyil.

Məşğələlərdə qadın və kişi əməyini özündə əks etdirən nağıl personajlarından (məsələn, «Göycək Fatma» nağılında Fatma, «Ağ atlı oğlan» nağılında Nərbala və s.) istifadə həm oğlan, həm də qızlarda müxtəlif əmək növləri vasitəsilə identikləşmə prosesini səmərəli edər.

Oğlan və qızların əmək prosesində birgə iştirakı hər iki cinsin cinsi-rol tərbiyəsində əsaslı rol oynayır. Birgə əmək fəaliyyəti tamamlayıcılıq prinsipinə əsaslanır ki, burada da uşaqlara «kimə hansı iş daha uyğundur» prinsipinə əsasən, vəzifə bölgüsü aparmaq öyrədilir. Oğlanlar fiziki cəhətdən daha güclü və dözümlü olduqlarından ağır işləri (su daşımaq, çarpayıların yerləşdirilməsi, stol və stulların düzülməsi), qızlar isə daha çox səliqə-sahman, dəqiqlik, estetik zövq tələb edən işləri (gəlinciklərin paltarlarının yuyulması, məşğələ otağının tərtibatı, dibçək güllərinin suvarılması, oyuncaqların səliqə ilə yığılması və s.) yerinə yetirirlər.

Cinslər arasındakı fərqlərə baxmayaraq, əməyin gender istiqaməti oğlanların qadın, qızların isə kişi əməyində iştirakını və onları mənimsəmələrini istisna etmir. Onların əməyin müxtəlif növləri ilə məşğul olmaları öz maraq və istəkləri əsasında qurulmalı və həyata keçirilməlidir. Bunun nəticəsində oğlan və qızlar müxtəlif cinslərə aid olunan bacarıqları, primitiv şəkildə də olsa mənimsəyirlər.

Yalnız əmək fəaliyyətində yox, fiziki tərbiyə məşğələlərində də oğlan və qızlara diferensiallaşdırılmış yanaşma məsləhət görülür. Fiziki terminlərin yerinə yetirilməsi zamanı diferensiasiya bir neçə istiqamətdə həyata keçirilir:

– hərəkətlərin seçilməsi (müxtəlif cinsdən olan uşaqlarda maraq oyadacaq müxtəlif hərəkətlər planlaşdırılıb seçilir);

– fiziki yük normalarının müəyyən edilməsi ( bu normalar arasındakı fərqlər yalnız gender yox, həm də uşaqların fərdi xüsusiyyətlərindən, sağlamlıq vəziyyətindən, fiziki hazırlığından və s. asılıdır);

– mürəkkəb hərəkətlərin öyrədilməsi metodları. Bu hərəkətlərin öyrədilməsində onların quruluşu və fiziki cəhətdən yerinə yetirilməsində cinsi fərqlər tərbiyəçi tərəfindən nəzərə alınmalıdır.

Uşaqların psixo-motor fəaliyyətinə pedaqoji rəhbərlik zamanı tərbiyəçi-müəllim hər iki cinsdən olan uşaqların hərəki fəallığına münbit şərait yaratmalıdır. Belə ki, böyük məktəbəqədər yaş dövründə oğlanlar üçün daha fəal, qızlar üçün isə orta səviyyədə psixo-motor fəaliyyəti məsləhətdir.

Birgə oyunlarda və yarışlarda uşaqlar üçün məzmununa görə neytral olan oyun və tapşırıqların seçilməsi vacibdir. Eyni idman hərəkətlərinin yerinə yetirilməsində oğlan və qızlara səviyyəsinə görə müxtəlif olan tələblər qoyulmalıdır. Oğlanlar üçün hərəkətlərin icra edilməsində dəqiqlik, ahəngdarlıq, əlavə gücün sərf edilməsi, qızlar üçün isə plastiklik, zəriflik, incəlik əsas götürülməlidir.

Elmi-metodik ədəbiyyatda tərbiyə olunanların gender fərqlərini nəzərə almaqla fiziki tərbiyə məşğələlərinin təşkil edilməsinin müxtəlif variantları təklif edilir:

1-ci variant. Məşğələ bütün qrupla keçirilsə də, bəzi tapşırıqlarda oğlan və qızlar fərqlənirlər.

2-ci variant. Kiçik qruplar üzrə məşğələlərdə qruplar cinsi əlamətlərə görə komplektləşdirilir.

3-cü variant. İnteqrativ məşğələlər, oğlan və qızlardan ibarət olan kiçik qruplarla işdə hər qrup öz ustalığını nümayiş etdirir.

Məktəbəqədər yaş dövründə uşaqların fiziki cəhətdən qiymətləndirilməsi zamanı yalnız onların cinsi yox, həm də şəxsi keyfiyyətləri nəzərə alınmalıdır.

Tədqiqatçılardan V.D.Yeremeyeva, T.P.Xrizman və P.Q.Xristova qeyd edirlər ki, oğlan və qızlar ətraf mühiti müxtəlif cür görür, eşidir, qavrayır və hərəkət edirlər. Oğlan və qızların beyin fəaliyyətində, psixi və idrak prosesindəki gender fərqlərinə əsaslanan bu tədqiqatçılar təlim prosesinə diferensiallaşdırılmış yanaşmanı məsləhət görürlər.

Oğlanlara tapşırıq verən zaman onların tədqiqatçılıq qabiliyyətləri işə düşür, belə ki, onlar tapşırıq haqqında məlumatın verilməsindən daha çox, özlərinin bu problemi müstəqil şəkildə həll etmələrinə çalışırlar. Qızlara verilən tapşırığın onlar üçün çətinliyini anlayan tərbiyəçi-müəllim məşğələnin lap əvvəlində işin gedişində istifadə ediləcək üsullar, prinsiplər haqqında onlara məlumat verməlidir. Bunlarla bərabər, qızlara ancaq plan üzrə yox, həm də müstəqil fəaliyyət göstərməyi aşılamaq lazımdır. Müəllim hər iki cinsdən olan uşaqların təlim fəaliyyətində oğlanlarda eşitmə, qızlarda isə görmə bacarıqlarından geniş istifadə etməlidir.

Təlim fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi zamanı oğlan və qızların gender fərqlərini nəzərə almaq lazımdır. Belə ki, qızların qiymətləndirilməsi zamanı onlara hansı qiymətin yazılması əhəmiyyət daşıyır. Oğlanlar üçün isə verilən qiymətin onların nüfuzuna necə təsir etməsi daha maraqlıdır və onlar müzakirə olunan predmetin daha çox mahiyyətinə fikir verirlər. Müasir ənənəvi təhsil sistemində, tədqiqatlara əsasən, beyinin sol yarımkürəsi daha fəal olan qızlar daha çox uğur qazanırlar. Sol yarımkürəsi daha fəal olan oğlanlar isə, əksinə, daha az uğur qazanan olurlar.

İzahlı-illüstrativ və reproduktiv təlim metodları, dərsə akademik hazırlıq, mexaniki əzbərçiliyə əsaslanan yaddaş, verbal qabiliyyətlər, icraedicilik və əməkdaşlıq – bu kimi keyfiyyətlər qızlarda beyinin sol yarımkürəsi tərəfindən həyata keçirilir.

Oğlanların təlimi zamanı daha çox sağ yarımkürə tərəfindən həyata keçirilən problemli, evristik metodlardan, yaradıcılıq fəaliyyətindən, məkanla bağlı tapşırıqların həllindən istifadə etmək məqsədəuyğundur.

M.N.Tereşenko tərəfindən aparılan tədqiqatlardan aydın olur ki, "...oğlanların məktəbə intellektual baxımdan daha səmərəli hazırlanması üçün onlarda məntiqi təfəkkürü, diqqətin dayanıqlığını, akustik və qısamüddətli yaddaşı inkişaf etdirmək əhəmiyyətlidir" [Tereşenko M.N., 2007]. Söz ehtiyatını zənginləşdirmək də vacibdir. Qızlarda isə obrazlı, məntiqi təfəkkürü, diqqətin dəqiq və düzgün paylanmasını, məkanla bağlı qabiliyyətləri, görməni və mexaniki yaddaşı inkişaf etdirmək lazımdır.

Tədqiqatçı müxtəlif cinslərdən olan məktəbəqədər yaşlı uşaqların intellektual hazırlığının xüsusiyyətlərini təsnifatlandırmışdır. Bu xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

*Oğlanlarla iş aparan zaman vacibdir:*

– tapşırığın verilməsində yüksək sürətin təmin edilməsi;

–verilən informasiyanın müxtəlif, qeyri-standart spektrlərindən istifadə etmək;

–verilmiş tapşırıqların rəngarəngliyini təmin etmək;

– daha çox qeyri-standart, məntiqi məsələlərdən istifadə etməklə məntiqi təfəkkürün inkişafına şərait yaratmaq;

– tədqiqatçılıq qabiliyyətinin artırılması və bu zaman şagirdlərə daha çox müstəqilliyin verilməsi;

– qruplarla iş metodundan istifadə etmək və iş prosesində liderləri tez-tez dəyişmək;

– keçilənlərin təkrarını minimuma endirmək.

*Qızlarla iş zamanı bunları nəzərə almaq zəruridir:*

–tapşırığın verilməsində müəyyən edilmiş sürət həddini gözləmək;

–mənimsəməni təmin etmək üçün təkrara daha çox yer vermək;

–yeni informasiyanın həcminin və müxtəlifliyinin müəyyən həddə saxlanılması;

–yeni materialın mənimsənilməsində obrazlı təfəkkürdən məntiqi təfəkkürə keçidi təmin etmək;

–qaydaların mənimsənilməsində nitq qabiliyyətlərindən istifadə etmək;

–qarşılıqlı yardıma əsaslanan qruplarla iş üsulundan istifadə etmək;

–daha çox vizual materiallardan istifadə etmək [Tereşenko M.N., 2007].

Fəaliyyətin təşkilində gender yanaşmasının nəzərə alınması həm şəxsiyyətin formalaşması, həm də təlim fəaliyyətinin nəticələrinin yüksəldilməsində səmərəliliyi təmin edir.

Müxtəlif fəaliyyət növlərinin təşkilində məktəbəqədər yaşlı uşaqların cinsi-rol inkişafının diaqnostlaşdırılması əhəmiyyətli rol oynayır. Bu yaş dövründə diaqnostlaşdırma hər iki cinsdən olan uşaqların psixoloji və şəxsi xüsusiyyətlərinin inkişaf səviyyəsini müəyyənləşdirməyə imkan verir. Daha çox psixoloji, pedaqo-

ji və psixoloji-pedaqoji diaqnostikadan istifadə edilir. Psixoloji diaqnostikanın predmeti uşağın psixoloji inkişafını, pedaqoji diaqnostikanın predmeti təlim materialını necə mənimsəməsini öyrənməkdir.

Məktəbəqədər yaşlı uşaqların cinsi-rol inkişafının diaqnostikası hər bir uşağın cinsi tərbiyəsinin səviyyəsini öyrənmək, onların cinsi-rol istiqamətində mövcud olan çatışmazlıqların korrektə edilməsi və hər uşağın fərdi inkişaf xüsusiyyətlərini müəyyənləşdirmək məqsədilə aparılır. Psixoloji-pedaqoji diaqnostika hər iki cinsdən olan uşaqların cinsi–rol inkişafının xüsusiyyətlərini, gender identikliyinin nə vaxtdan yaranmasını və gender təsəvvürlərinin formalaşmasını müəyyənləşdirməyə imkan verir.

Rus tədqiqatçılarından E.E.Sapoqova 5 yaşdan 7 yaşadək uşaqlarda gender təsəvvürlərinin və cinsi-rol identikliyinin formalaşmasındakı problemlərin üzə çıxarılmasında istifadə edilən diaqnostik oyun və məşğələlər işləyib hazırlamışdır:

«Personaj» məşğələsi. Oyunda uşağa üzərində müxtəlif fəaliyyət və şəxsləri əks etdirən kartlar göstərilir və ondan xahiş olunur ki, qızların və oğlanların harada təsvir olunduğunu göstərsin.

«Valideyinlər üçün hədiyyə» məşğələsi. Uşağa ikiyə bölünmüş vərəq verilir və hər hissədə 4–6 ədəd eyni, tamamlanmamış parcalar olur. Ondan xahiş olunur ki, bu parçalardan istifadə etməklə sol tərəfdə ana üçün, sağ tərəfdə isə ata üçün hədiyyələr düzəltsin.

«Oğlanlar (qızlar) ölkəsi» məşğələsi. Oğlana elə bir ölkəni xəyalına gətirməyi təklif edirlər ki, həmin ölkədə ancaq qızlar yaşayır. O, burada özünü necə aparacaq? Oradakı qızlar kimi hərəkət edəcək, yoxsa mənsub olduğu cinsin xüsusiyyətlərini göstərəcək? [ Sapoqova E.E., 1996].

Uşaqlara ailə şəkillərinin göstərilməsi yolu ilə onların ailəyə olan emosional münasibətlərinin və ailənin quruluşu, ailə üzvləri arasındakı qarşılıqlı münasibətlər haqqında biliklərinin səviyyəsinin öyrənilməsi üçün şərait yaratmaq olar.

## Nəticə / Conclusion

İnsan yaşadığı zaman kəsiyində müxtəlif yaş dövrlərindən keçir və hər yaş dövrü onun şəxsiyyət kimi formalaşmasına öz təsirini göstərir. Şəxsiyyətin xarakterinin formalaşmasında, pedaqoqların fikrincə, məktəbəqədər yaş dövrünün rolu çox önəmlidir. Uşaqların əmək fəaliyyətinin təşkilində bu dövrün özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması onların sosial-psixoloji inkişafında əsaslı rol oynayır.

Məktəbəqədər dövrdən başlayaraq uşaqlarda əməyə maraq və məhəbbətin

yaradılması prosesində gender yanaşmasının nəzərə alınması bu prosesin səmərəliliyini artıran amillərdən biridir.

Məktəbəqədər yaş dövrünün xüsusiyyətlərinin gender baxımından təhlili onu deməyə əsas verir ki, bu yaş mərhələsində uşaqların cinsi-rol tərbiyəsi onlarda öz cinslərinə uyğun maskulin və ya femin davranış modelinin formalaşmasına, onların cəmiyyətdə mövcud olan gender stereotiplərinə tənqidi münasibətlərin yaranmasına şərait yaradır. Bəzən uşağın tərbiyəsində bu amil nəzərdən qaçırıldıqda həm mənəvi, həm də psixoloji kənaraçıxmalar müşahidə olunur. Belə olan halda, gender identikliyi kifayət qədər formalaşmamış uşaqlara həm kişilərin, həm də qadınların cəmiyyətdə, ailədəki rolları haqqında geniş məlumat verməklə, onlarda mənsub olduqları cinsə görə qürur hissi aşılamaq lazımdır. Eyni zamanda, uşaqların əmək fəaliyyətinə cəlb edilməsində əməyin növləri, onların gender baxımından xarakterizə edilməsi əsaslı rol oynayır.

Oğlan və qızların kollektiv əməyi pedaqogikada hər iki cinsin cinsi-rol tərbiyəsində, onların arasında qarşılıqlı münasibətlərin yaranmasında səmərəli yollardan biri sayılır. Kollektiv əmək cinsi tərbiyənin səmərəliliyini artırmaqla yanaşı, onlarda əks cinsin əməyinə hörmət hissi aşılayır. Kollektiv əmək fəaliyyətində qızlarda fiziki cəhətdən çətin olan işlərin öhdəsindən gələn oğlanlara, oğlanlarda isə səliqə-sahman tələb edən işləri öz üzərinə götürən qızlara hörmət hissi tərbiyə etmək daha asan olur.

**Məqalənin aktuallığı.** Bu gün təhsilin bütün pillələrində, eləcə də məktəbəqədər yaş dövründə gender tərbiyəsinin hələ lazımi səviyyədə tədqiq edilməməsi, onun geniş araşdırmalar müstəvisinə çıxarılmaması ilə bağlıdır. Təəssüf ki, hələ Azərbaycanda bu yaş dövründə olan uşaqların gender aspektində təlim-tərbiyə problemləri araşdırılmamışdır və bu sahədə elmi-pedaqoji tədqiqatlara ehtiyac var. Eyni zamanda, müasir məktəbəqədər təhsil müəssisələrində və ailədə uşaqların tərbiyəsində gender fərqlərinin nəzərdən qaçırılması və onların hələ də cəmiyyətdə güclü olan gender stereotipləri əsasında tərbiyə edilməsi bu sahədə boşluqların olmasına dəlalət edir.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, ilk dəfə məktəbəqədər yaş dövrünün pedaqoji-psixoloji inkişafında gender yanaşmasının əhəmiyyəti elmi şəkildə əsaslandırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivi uşaqların gender tərbiyəsi ilə bağlı bu məqalədə verilmiş ideyalardan, metodlardan istifadə etməklə təlim-tərbiyə prosesinin səmərəliliyini artıra bilər.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Gender: tarix, cəmiyyət, mədəniyyət. (2003). Qərb Universitetinin Gender araşdırmaları mərkəzi. Bakı.
2. Biddalf S. (2005). Vospitanie malçişek. Per. s anql. M.: "Pipol- klassik".
3. Qradusova L.V. (2011).Qendernaya pedaqoqika. Moskva, «Nauka».
4. Yeremeeva V.D., Xrizman T.P. (1998). Malçiki i devoçki – dva raznıx mira. S–Pb.
5. Kaqan V.E. (2000). Koqnitivnıe i emosionalnıe aspektı qendernıx istanovok u detey 3–7 лет. « Voprosı psixoloqii», №2.
6. Semenova L.E. (2002). Qendernıy aspekt strateqii i taktiki prityazaniy u detey starşeqo doşkolnoqo vozrasta. «Voprosı psixoloqii», № 4.
7. Sapoqova Y.Y. (1996). Psixoseksualnaya identifikasiya v doşkolnom vozraste // "Jurnal praktiçeskoqo psixoloqa", №5.
8. Терещенко М.Н. (2007). Гендерный подход как основа повышения качества подготовки детей к школе // «Детский сад от А до Я», № 5
9. Telnyuk İ. (2006). Polorolevaya sosializasiya detey v elementarnoy trudovoy deyatelnosti // «Detskiy sad ot A do Ya», № 1.
10. Xristova R.Q. (2008). Predstavleniya doşkolnikov o svoey qendernoy prinadlejnosti // "Sovremennıy detskiy sad", № 8.
11. Çekalina A.A. (2009). Uçebnoe posobie. — M.: "Os".